# Qarabağ azərbaycanlısının mövqeyi

Təbib Hüseynov

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün aparılan sülh danışıqları on ildən artıqdır ki davam edir, lakin hələlik heç bir hiss edilən irəliləyiş yoxdur. "Nə sülh, nə savaş" vəziyyətinə düşmüş Ermənistan və Azərbaycan, eləcə də Dağlıq Qarabağdakı erməni rəhbərliyi faktiki olaraq, gözləmə mövqeyinə keçiblər. Uzun çəkmiş bu status-kvo vəziyyətində ən çox uduzan Qarabağ azərbaycanlılarıdır. Qarabağ azərbaycanlılarının əksəriyyəti hesab edir ki, bu vəziyyət onlara birbaşa aidiyyəti olan qərarlara təsir etmək imkanlarını əllərindən almaqla və öz el-obalarına qayıtmaq şanslarını azaltmaqla onların maraqlarına xələl gətirir.

## Terminologiya problemləri

Azərbaycanda "qarabağlı" termini tarixən daha geniş olan Qarabağ bölgəsinin əhalisinə şamil edilirdi. Qarabağ bölgəsinə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi ilə yanaşı Laçın və Kəlbəcər rayonları (azərbaycanlılar bu üç ərazini birlikdə "yuxarı" və yaxud "dağlıq Qarabağ" adlandırırlar), və həmçinin qonşu ovalıq ərazilər ("aşağı Qarabağ") daxil idi. Ermənilərdən fərqli olaraq, azərbaycanlılar tarixən aşağı və yuxarı Qarabağ arasında fərq qoymamış və bölgəni özlərinin hər zaman həm siyasi, həm də demoqrafik cəhətdən üstünlük təşkil etdikləri vahid coğrafi, iqtisadi və mədəni məkan kimi qəbul etmişlər. Bu səbəbdən də, əksər azərbaycanlılar hesab edirlər ki, 1923-cü ildə "süni" (yəni, əvvəllər mövcud olmayan) sərhədlər çərçivəsində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması Sovet İttifaqı / Rusiyanın "parçala və hökm sür" siyasətinin tərkib hissəsi kimi Azərbaycanın daxilində ermənilərin çoxluq təşkil etdiyi bölgə yaratmaq məqsədi güdürdü. Beləliklə, ermənilər Azərbaycanı daimi nəzarət altında saxlamaq üçün bir vasitə kimi təsəvvür edilirdilər.

Azərbaycanın rəsmi siyasətində Qarabağın azərbaycanlı icması dedikdə, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) azərbaycanlı əhalisi nəzərdə tutulur. Bu əhali 1989-cu ilin siyahıya alınmasına görə, DQMV əhalisinin 21,5%-ni (təqribən 40.000 nəfər) təşkil edirdi. Bu yanaşmaya əsasən, Qarabağın azərbaycanlı icması işğal edilmiş ərazilərdən olan 600.000 məcburi köçkünlərin kiçik bir hissəsini təşkil edir.

Lakin bu rəsmi tərifə birmənalı qiymət vermək olmaz, çünki Dağlıq Qarabağın muxtariyyət statusu 1991-ci ilin sonunda ermənilərin "Dağlıq Qarabağ Respublikasını" elan etmələrinə cavab olaraq, Azərbaycanın özü tərəfindən ləğv edilmişdir. Eyni zamanda, bu ərazinin inzibati bölgüsü də dəyişdirilmiş və DQMV-nin bir hissəsi qonşu Kəlbəcər, Ağdam və Tərtər rayonları arasında paylanmışdır. Beləliklə də, bu ərazilərdə yaşayan azərbaycanlılar rəsmi yanaşmaya görə, Qarabağın azərbaycanlı icması anlayışından kənar qalmış, adı çəkilən icma isə, faktiki olaraq, Şuşanın əhalisi dərəcəsinə endirilmişdir (münaqişədən əvvəl Şuşada DQMV-nin bütün azərbaycanlı əhalisinin 70 faizi yaşayırdı). Ən əsası, qeyd etmək lazımdır ki, icmanın müəyyənləşdirilməsinə bu cür yanaşma

Təbib Hüseynov Beynəlxalq Respublikaçılar İnstitutunun Bakı ofisinin əməkdaşıdır. Mərkəzi Avropa Universitetinin məzunudur. Dağlıq Qarabağ məsələsinə aid çoxsaylı görüşlər və elmi toplantılarda iştirak etmişdir.



Laçının əhalisini (təqribən 60.000 nəfər) xaric edir, baxmayaraq ki, bütün danışıqlar prosesi boyunca Laçının gələcək statusu Dağlıq Qarabağın statusu məsələsinin ayrılmaz hissəsi olmuşdur.

## Siyasi təcrid olunma

Ölkə daxilində Qarabağın azərbaycanlı icmasının problemləri Azərbaycanın daha geniş olan məcburi köçkün icmasının problemlərinin tərkib hissəsidir. Azərbaycan adam başına düşən məcburi köçkün əhalisinə görə dünyada birinci yerlərdən birini tutur, bununla belə, məcburi köçkünlərin Azərbaycan siyasətinə təsiri minimuma endirilmişdir. Belə bir vəziyyət onların zəif təşkilatlanmasından, ağır sosial-iqtisadi şəraitlərindən və dövlətin onların üzərinə qoyduğu siyasi məhdudiyyətlərdən irəli gəlir. Məsələn, 1995-ci ildən bəri keçirilmiş bütün seçkilərdə məcburi köçkünlərin səsverməsi və qeydiyyatdan keçməsinin şəffaf olmaması bu icmalarda seçkilərin qanuna və həqiqətə uyğunluğunu şübhə altına qoyur. Hakimiyyət müvəqqəti sığınacaqlarda və qaçqın düşərgələrində yaşayan məcburi köçkün icmasının böyük hissəsini qalan əhalidən faktiki olaraq təcrid edilmiş saxlayır. Müxalifət nümayəndələri, KİV əməkdaşları və vətəndaş cəmiyyətinin fəalları üçün bu düşərgələrə giriş məhdudlaşdırılmışdır.

Bundan əlavə, məcburi köçkünlər özünü idarəetmə institutlarından məhrumdurlar. Bu günədək məcburi köçkünlərin yeganə idarəetmə orqanı yalnız nominal fəaliyyət göstərən və əsasən müavinatların paylanması ilə məşğul olan "mühacirətdə olan icra hakimiyyətləri" olmuşdur. Azərbaycan hakimiyyəti Qarabağ azərbaycanlılarını danışıqlarda təmsil etmək üçün onlara icma rəhbərini seçməyə imkan yaratmamışdır. Bunun əvəzinə, 1992-ci ildən bu rolda prezident tərəfindən təyin edilmiş Şuşanın "mühacirətdə olan icra hakimiyyətinin" başçısı Nizami Bəhmənov çıxış edir.

Yuxarıda qeyd olunan vəziyyət, və üstəlik danışıqlarda irəliləyişin olmaması və kimsəsizlik hissi insanları məyusluğa çəkib radikalçılıq və müharibə çağırışları üçün münasib şəraitə zəmin yaradır. Münaqişəni ermənilərin "Böyük Ermənistan" yaratmaq məqsədilə azərbaycanlılara qarşı törətdiyi "soyqırım" prizmasından təqdim edən geniş yayılmış millətçi diskurs belə meyllərin formalaşmasına böyük təsir göstərir. Müəyyən dərəcədə, Azərbaycan cəmiyyətinin ictimai şüurunda yer almış tendensiyalar erməni cəmiyyətinin əvvəllər yaşadıqlarına bənzəyir: bu tendensiyalar "məğlubiyyət kompleksi", nail olunmamış milli məqsədlər və millətin "qurban" olunması hissinin nəticəsidir.

Məcburi köçkünlərin maraqlarını təmsil edən azsaylı təşkilatlar arasında Qarabağ Azadlıq Təşkilatı (QAT) daha çox tanınır. Bu təşkilat hökumətin "təslimçi" mövqeyini və beynəlxalq qurumların "ikili standartlarını" tənqid etməklə münaqişəni hərbi yolla həll etməyə çağırır. Bununla belə QAT-ın məşhur şüarı - "Qarabağsız Azərbaycan yoxdur!" - əksər azərbaycanlıları bürümüş həyəcanı əks edir: Qarabağın itirilməsi ölkənin tamamilə parçalanmasına və bütün Azərbaycan millətinin məhv olmasına gətirib çıxara bilər. Baxmayaraq ki, Qarabağın azərbaycanlı icması zəif və qeyri-mütəşəkkildir, əgər bu gün onların maraqlarına etinasız münasibət göstərilərsə, sabah bu icma güclü sarsıdıcı qüvvəyə çevrilə bilər.

## Sülh prosesindən təcrid olunma

Qarabağ azərbaycanlıları (Qarabağ erməniləri ilə bərabər) 1992-ci ildə "Dağlıq Qarabağın seçilmiş və digər nümayəndələri" adı altında Minsk Qrupunun mandatı çərçivəsində münaqişənin "maraqlı tərəfi" kimi tanınmışdır. Lakin praktikada Qarabağın azərbaycanlı icması Azərbaycan, Ermənistan və beynəlxalq qurumların müvafiq siyasətləri ucbatından danışıqlardan kənar düşmüşdür. Münaqişəyə dövlətdaxili və ya dövlətlərarası baxış prizmasından asılı olmayaraq, həm Ermənistan, həm Azərbaycan yanaşmalarında Qarabağın azərbaycanlı icması nəzərə alınmır, buna görə də münaqişənin Qarabağ erməniləri və azərbaycanlıları arasındakı icmalararası müstəvisinə əhəmiyyət verilmir.

Qarabağ azərbaycanlılarının danışıqlarda birbaşa iştirak etmək imkanı olmadığından, onların maraqlarına bütün danışıqlar prosesi boyunca laqeydlik göstərilmişdir. Danışıqlarda tez-tez istinad edilən "sülh əvəzinə torpaq" yanaşması və onun variantlarından biri olan "5+1+1" düsturuna əsasən, ilk öncə Dağlıq Qarabağın ətrafındakı beş işğal edilmiş Azərbaycan rayonları qaytarılmalı, sonradan isə, Kəlbəcər və Laçın şərti olaraq qaytarıla bilər. Erməni tərəfi Dağlıq Qarabağın

*Bakının baxımsız neft quyularında oynayan Qarabağın məcburi köçkün uşaqları.*

*Mənbə: Panos/Haydi Bradner*

müstəqilliyi və ya Ermənistanla birləşməsi üçün dividentlər toplamaq məqsədilə, Dağlıq Qarabağdan kənarda işğal edilmiş ərazilərdən istifadə edir, bu fakt da Qarabağın azərbaycanlı icmasının maraqlarını birbaşa təhlükə altına qoyur.

## Təhlükəsiz və ləyaqətli qayıdış

Qarabağ azərbaycanlılarını düşündürən əsas məsələ öz doğma el-obalarına təhlükəsiz və ləyaqətli qayıdışlarıdır. Onlar hesab edirlər ki, Ermənistan və Azərbaycan prezidentlərinin imzaladıqları hər hansı sülh sazişinə Dağlıq Qarabağda Qarabağ azərbaycanlılarının statusu, və deməli, Şuşa və Laçının gələcək statusuna dair müddəalar daxil edilməlidir. Şuşa Qarabağ azərbaycanlıların mənəvi mənliyinin və mövcudluğunun təməl daşıdır, buna görə də onlar istənilən sülh təklifinə Şuşaya təhlükəsiz və ləyaqətlə qayıtmaq imkanı prizmasından baxırlar. Şuşa münaqişədən əvvəl keçmiş DQMV-nin beş bölgələrindən biri və azərbaycanlıların böyük əksəriyyət (91%) təşkil etdiyi yeganə rayonu idi. Bundan əlavə, bu şəhər azərbaycanlılar üçün böyük rəmzi əhəmiyyət daşıyır - Şuşa Qarabağın tarixi mərkəzi olmaqla bərabər, eyni zamanda Azərbaycan mədəniyyətində müstəsna rol oynamış görkəmli şəxsiyyətlərin vətənidir.

Azərbaycan hökuməti üçün hazırda Dağlıq Qarabağın ətrafındakı bölgələrin qaytarılması prioritet təşkil etdiyi zaman, Qarabağ azərbaycanlıları bu rayonların Şuşasız qaytarılmasını təsəvvür etmirlər. Danışıqlar prosesində erməni tərəfi dəfələrlə Qarabağ azərbaycanlılarının Şuşaya qayıdışı məsələsini ermənilərin Dağlıq Qarabağdan kənardakı Azərbaycan bölgələrinə qayıdışı ilə əlaqələndirməyə çalışmışdır. Lakin Qarabağ azərbaycanlıları hesab edirlər ki, bu yanlış yanaşmadır və onların qayıtmasının qarşısını almaq üçün yalnız bir bəhanədir, çünki Dağlıq Qarabağdan kənarda Azərbaycanın digər bölgələrindən olan erməni qaçqınlarının repatriasiyası məsələsi Ermənistandan olan azərbaycanlı qaçqınların eyni hüququnun tanınması ilə paralel şəkildə baxılmalıdır.

Bu gün Qarabağın azərbaycanlı icmasında böyük narahatçılıq doğuran məsələ işğal edilmiş torpaqlarda erməni administrasiyası tərəfindən ermənilərin məskunlaşdırılmasıdır. Belə ki, Qarabağın erməni rəhbərliyinin qəbul etdiyi "rəsmi" proqrama əsasən, Dağlıq Qarabağın əhalisi 1990-cı illərin əvvəllərindəki təxminən 150.000 nəfərdən 2010-cu ilə kimi ikiqat artaraq 300.000 nəfər təşkil edəcəkdir. Bu cür qeyri-qanuni məskunlaşdırma siyasəti və Azərbaycanı fakt qarşısında qoymaq niyyəti sülh prosesini çətinləşdirib uzaq perspektivdə münaqişənin həllində ciddi əngəl ola bilər.

## "Yeni azlıq" olmayacaq

Erməni tərəfi müntəzəm surətdə Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmə hüquqlarını gündəmə gətirir. Onların niyyəti bu hüququ ayrılma yolu ilə gerçəkləşdirməkdir. Azərbaycan bu mövqeyə ərazi bütövlüyü və beynəlxalq sərhədlərin pozulmazlığı prinsipləri ilə cavab verir. Bununla belə, öz müqəddəratını təyin etmə hüququ ilə ərazi bütövlüyü arasında gedən bu süni mübahisədə nədənsə nəzərə alınmır ki, Qarabağ azərbaycanlılarının da öz müqəddəratlarını təyin etmə hüququ vardır. Bundan əlavə, qeyd etmək lazımdır ki, Qarabağ ermənilərinin və ya azərbaycanlılarının öz müqəddəratını təyin etmə hüququ heç də mütləq ayrılmanı nəzərdə tutmur.

Əgər hər hansı saziş Qarabağ azərbaycanlılarını Qarabağ ermənilərindən asılı vəziyyətdə qoyarsa, Qarabağ azərbaycanlıları belə bir çözüm yolunu qəbul etməyəcəklər. Qarabağ erməniləri dəfələrlə bəyan ediblər ki, Azərbaycanda azlıq kimi qalmaq istəmirlər və Azərbaycan dövləti ilə Qarabağın erməni hakimiyyəti arasında tabeçilik münasibətlərinə qarşı çıxırlar. Buna bənzər olaraq, Qarabağ azərbaycanlıları da ermənilərin hökmranlıq edəcək bir Dağlıq Qarabağda onları "yeni azlıq" vəziyyətində qoyan hər hansı sazişlə razılaşmayacaqlar. Əgər Qarabağ azərbaycanlıları öz keçmiş düşmənlərinin yurisdiksiyasına verilərsə və onlara Qarabağ ermənilərinə verilmiş eyni özünü idarəetmə hüququ və paralel təhlükəsizlik zəmanətləri təmin edilməzsə, əksər azərbaycanlılar öz Qarabağdakı evlərinə qayıtmazlar.

## Nəticə

Təəssüf ki, həm Ermənistan, həm də Azərbaycan cəmiyyətində gedən polemika və kütləvi informasiya vasitələri əks tərəfin problemləri və narahatlıqlarına etinasızlıq göstərirlər. Münaqişəni həll etmək üçün ermənilər və azərbaycanlılar öz mövqe və siyasətlərini əsaslı şəkildə dəyişməlidirlər. Bunu etmək üçün onlar suverenlik, öz müqəddəratını təyin etmə, milli və etnik sərhədlər və çoxluq-azlıq münasibətləri kimi ənənəvi anlayışlara yeni prizmadan baxmalıdırlar. Bu baxımdan Avropa təcrübəsi, xüsusilə də Avropa İttifaqının inteqrasiya modelinin imkanlarını nəzərdən keçirmək faydalı olardı.

Heç şübhəsiz ki, həll yolu Ermənistanla Azərbaycanın, və həmçinin Qarabağ erməniləri və azərbaycanlılarının yanaşı yaşaması və əməkdaşlığından keçir. Danışıqlarda irəliləyiş əldə etmək üçün Dağlıq Qarabağın həm erməni, həm də azərbaycanlı nümayəndələrinin daha fəal iştirakı tələb olunur. Beynəlxalq toplum vətəndaş təşəbbüslərini dəstəkləməklə yanaşı, təkcə Ermənistan və Azərbaycan nümayəndələri arasında yox, həmçinin Qarabağ erməniləri və azərbaycanlıları arasında birbaşa əlaqələrə imkan yaratmalıdır. Qarabağ probleminin mövcudluğu həm Azərbaycanda, həm də Ermənistanda demokratiyanın inkişafı üçün ciddi maneədir. Eyni zamanda, ağır kompromisləri məhz güclü, demokratik və legitim hakimiyyətlər həyata keçirməlidirlər.